

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 165 (21.826)

31 avqust 2017-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası təltiflərinin verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında səmərəli fəaliyyətlərinə görə:

Cəfərov Afiq Akif oğlu

Məmmədov Bəhruz Şükür oğlu

Səfərov Emin Ələddin oğlu – **"Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə"** nişanı ilə;

Əliyev Rövşən Məmmədəli oğlu

Rüstəmov Mehman Hüseynxan oğlu – **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 30 avqust 2017-ci il*

## Nəqliyyat infrastrukturunun genişləndirilməsi Naxçıvanı tranzit mərkəzə çevirməkdədir

***Hər bir ölkənin iqtisadi inkişaf göstəricilərindən biri müasir yol-nəqliyyat infrastrukturuna malik olmasıdır. Çünki yollar yük və sərnişin daşımalarının rahat, təhlükəsiz və vaxtında həyata keçirilməsini təmin edən əsas vasitədir. Buna görə də tikinti-quruculuq tədbirləri sırasında yol tikintisinin maliyyəti bahalı sayılmaqla yanaşı, həm də strateji əhəmiyyət daşıyır. Bu baxımdan ümummilli lider Heydər Əliyevin "Yol iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir" fikri hər zaman öz aktuallığı ilə seçilir. Ulu öndər Azərbaycana rəhbərliyinin hər iki dövründə ölkəmizdə yol infrastrukturunu diqqət mərkəzində saxlayıb, nəqliyyat sahəsinin inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirib. Bu strateji xətt muxtar respublikamızda da uğurla davam etdirilir, yol infrastrukturunun inkişafı ilə bağlı mühüm tədbirlər həyata keçirilir.***



Ölkə başçısı cənab İlham Əliyevin imzaladığı müvafiq sərəncamlar Naxçıvanda yol-nəqliyyat infrastrukturunun müasir tələblər səviyyəsində qurulmasına səbəb olub. Belə ki, dövlət başçısının "Naxçıvan Muxtar Respublikasının Culfa və Kəngərli rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" 2011-ci il 2 sentyabr tarixli Sərəncamına əsasən Culfa rayonunda uzunluğu 57,6 kilometr olan, 20 kəndi əhatə edən Çeşməbasar-Boyəhməd avtomobil yolu, Kəngərli rayonunda uzunluğu 39,2 kilometr olan, 5 kəndi əhatə edən Naxçıvan-Sədərək magistralı – Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi avtomobil yolu, "Naxçıvan Muxtar Respublikasının Babək rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" 2013-cü il 5 mart tarixli Sərəncamına əsasən uzunluğu 25,6 kilometr olan, 13 yaşayış məntəqəsini birləşdirən Hacıvar-Vayxır-Sirab avtomobil yolu, "Naxçıvan Muxtar Respublikasının Babək rayonunda Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında" 2014-cü il 27 avqust tarixli Sərəncamına əsasən uzunluğu 25,4 kilometr olan, 7 yaşayış məntəqəsini birləşdirən müvafiq yol yenidən qurulub.

Muxtar respublikada beynəlxalq yük və sərnişin daşımalarında 87 kilometr uzunluğunda Naxçıvan-Sədərək və 32,4 kilometr uzunluğunda Naxçıvan-Culfa magistral avtomobil yolları mühüm əhəmiyyət daşıyır. Ötən dövrdə adıçəkilən avtomobil yolları yenidən qurulub, bu yollarda hərəkətin təhlükəsizliyi təmin edilib. Muxtar respublikanın bir sərhədburaxılış məntəqəsindən digərinədək uzanan bu magistral avtomobil yolu qədim İpək Yolunun bir qolu üzərində yerləşməklə yanaşı, həm də Naxçıvanı qardaş Türkiyə və Avropa ölkələri ilə birləşdirən mühüm tranzit dəhlizidir. 2012-ci ilin may ayında muxtar respublikaya səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Böyük İpək Yolunun bir hissəsi olan Naxçıvan-Culfa magistral avtomobil yolunun açılışında da iştirak etmişdir.

Ötən dövrdə Naxçıvan Şəhər Nəqliyyat İdarəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir Avtobus Parkının istifadəyə verilməsi, Naxçıvan, Şərur, Ordubad, Culfa və Şahbuz şəhərlərində müasir avtovağzal komplekslərinin inşa olunması Naxçıvanın qonşu ölkələrlə sərnişindaşıma xidmətinin yaxşılaşdırılmasına da öz töhfəsini verib. Hazırda Naxçıvan-Bakı, Naxçıvan-Batumi və Naxçıvan-Ərzurum avtobus marşrutlarının fəaliyyət göstərməsi sərnişindaşımada çoxşaxəliliyin təmin olunmasına imkan verib.

Muxtar respublikada mühüm nəqliyyat infrastrukturlarından biri də dəmir yollarıdır. Ötən əsrin 90-cı illərində baş verən hadisələr nəticəsində Naxçıvan Muxtar Respublikasının dəmir yolu ölkədən təcrid edilib, muxtar respublika blokada vəziyyətinə düşüb. Lakin ümummilli liderimizin gərgin əməyi sayəsində dəmir yolu nəqliyyatı öz fəaliyyətini dayandırmayıb, muxtar respublikada bu sahədə tələbatın ödənilməsinə nail olunub.

Ulu öndərimiz Heydər Əliyevin ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra dəmir yolu nəqliyyatı da özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 16 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında dəmir yolu nəqliyyatı sisteminin 2011-2015-ci illər üzrə İnkişaf Proqramı" dəmir yolu nəqliyyatının inkişafına təkan verib. İnkişaf proqramına uyğun olaraq mühüm dəmiryol qovşağı olan Culfa stansiyasında Yük və Sərnişin Daşımaları İdarəsinin inzibati binası, Culfa Lokomotiv Deposu, Lokomotiv Briqadalarının İdarəedilməsi Mərkəzi və Radio-rabitə sexi binası əsaslı təmir edilərək istifadəyə verilib, dəmir yolu keçidləri yenidən qurulub, yeni keçidlər salınıb. Bu nəqliyyat sektorunda da beynəlxalq daşımaların həyata keçirilməsi üçün zəruri addımlar atılıb. Belə ki, ötən il qonşu ölkələrlə iqtisadi əlaqələrin daha da dərinləşməsinə xidmət edən Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarı fəaliyyətə başlayıb. Bakı-Tbilisi-Qars dəmir yolunun Naxçıvan-Culfa-Təbriz dəmir yolu xəttinə birləşdirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilməkdədir.

Hava nəqliyyatı isə blokada vəziyyətinə salınmış muxtar respublikanı digər ölkələrlə, eyni zamanda paytaxt Bakı şəhəri ilə əlaqə saxlamağa imkan verən yeganə nəqliyyat vasitəsi olub. Bu illər ərzində muxtar respublikada tədbirlər həyata keçirilib, yeni aerovağzal kompleksi tikilərək istifadəyə verilib, Naxçıvan hava limanı beynəlxalq status qazanıb. Naxçıvan Beynəlxalq Hava Limanında yeni inzibati bina inşa olunub, əhaliyə göstərilən xidmətlərin səviyyəsinin daha da yaxşılaşdırılması, təyyarə uçuşlarının təhlükəsizliyinin tam təmin edilməsi məqsədilə Şərq və Qərb terminalları istifadəyə verilib. Yenidənqurma işlərindən sonra hava limanının illik sərnişin və yükdaşıma dövriyyəsi xeyli artıb, aerovağzal binasından istifadə edən sərnişinlərin sayı saatda 600 nəfərə çatdırılıb.

Hər üç sektorda kompleks işlərin görülməsi muxtar respublikada nəqliyyatın dinamik inkişafına səbəb olub. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, 1995-ci illə müqayisədə 2016-cı ildə muxtar respublikada yük daşınması 25,4 dəfə artaraq 16 milyon 83 min tona, sərnişin daşınması isə 4,3 dəfə artaraq 100 milyon 129 min nəfərə çatıb. Nəqliyyat sektorunun inkişafı hazırda Naxçıvanın Rusiya, Türkiyə, İran, Gürcüstan kimi ölkələrlə birbaşa nəqliyyat əlaqələrinin yaradılmasına səbəb olub. Muxtar respublikanın hərtərəfli inkişafı isə bu sektorun daha da genişlənməsinə imkan verəcək ki, Naxçıvan yaxın gələcəkdə regionun mühüm tranzit mərkəzlərindən birinə çevriləcək.

**Səbuhi HƏSƏNOV**

## Naxçıvandan başlanan böyük xilaskarlıq missiyası

***Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı ümummilli lider Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsinin 26-cı ildönümünə həsr olunmuş "Naxçıvandan başlanan böyük xilaskarlıq missiyası" mövzusunda tədbir keçirib.***



Tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quliyeva çıxış edərək bildirib ki, xalqımızın tarixinə qızıl hərflərlə yazılmış 1991-ci il 3 sentyabr özünün qurtuluş, istiqlal və inkişaf missiyası ilə Azərbaycan tarixində şanlı bir səhifə olaraq əbədiləşib. Blokada vəziyyətinin yaratdığı çətinliklərə sinə gərən, düşmən təcavüzünə qarşı rəşadətlə müqavimət göstərən naxçıvanlılar ulu öndər Heydər Əliyevə böyük məhəbbət və inam bəsləyərək ümummilli liderin öz fəaliyyətini Ali Məclisin Sədri kimi davam etdirməsini istəyirdilər. Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə iclasında ulu öndər Heydər Əliyev Ali Məclisin Sədri seçildi.

Qeyd olunub ki, dahi rəhbərimiz Ali Məclisin Sədri kimi fəaliyyət göstərdiyi dövrdə mahiyyət və miqyasına görə əsrlərə bərabər işlər görüb, "hakimiyyət xalq üçündür" prinsipini reallığa çevirib. Ümummilli lider real düşmən təcavüzünə məruz qalan, blokada şəraitində yaşayan Naxçıvanın, ilk növbədə, müdafiə qabiliyyətini gücləndirməyə nail olub. Görkəmli dövlət xadiminin uzaqgörən siyasətinin nəticəsi olaraq 1991-ci il sentyabrın 7-də Ali Məclis "Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsinin yaradılması haqqında" Qərar qəbul edib. Bu qərar Naxçıvanın müdafiə qabiliyyətinin gücləndirilməsi istiqamətində görülən işlərin başlanğıc nöqtəsi idi. Sonrakı dövrlərdə qəbul edilmiş tarixi qərarlarla isə Naxçıvanda yerləşən sovet qoşunlarına məxsus hərbi texnika və silahların muxtar respublikada saxlanması təmin olundu. Əhalinin böyük mütəşəkkilliyi, torpağa bağlılığı və ulu öndərə olan sonsuz inamı nəticəsində muxtar respublikada Milli Ordu yaradıldı, Naxçıvanın müdafiə potensialı gücləndirildi, bugünkü qüdrətli Azərbaycan Ordusunun əsası qoyuldu.

Xalqımızın böyük oğlu Ali Məclisin Sədri işləyərkən dünya azərbaycanlılarını bir ideya ətrafında – Vətənə və xalqa xidmət uğrunda birləşməsi üçün də tədbirlər görməyi diqqət mərkəzində saxlayırdı. Çünki xalq arasında sağlam ideologiyaya əsaslanan birlik olmadan ölkəni düşdüyü bəlalardan qurtarmaq və inkişaf yoluna çıxarmaq mümkün deyildi. Bu baxımdan 1991-ci il dekabrın 16-da Ali Məclis tərəfindən "31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərarın qəbul edilməsi xüsusi əhəmiyyətə malikdir. Həmin qərara əsasən 1991-ci il dekabr ayının 31-də həmrəylik bayramı ilk dəfə muxtar respublikada kütləvi tədbirlərlə qeyd olundu.

Bildirilib ki, bu dövrdə Naxçıvan Muxtar Respublikasında xarici iqtisadi əlaqələrin qurulması sahəsində də mühüm addımlar atılıb, ulu öndər 1992-ci ildə qonşu İran İslam Respublikasına və Türkiyə Cümhuriyyətinə səfərlər edib, keçirilən görüşlərdə iqtisadi sahədə əməkdaşlığa dair protokollar imzalanıb. 1993-cü il fevralın 5-də Türkiyə Cümhuriyyətinin, martın 8-də isə İran İslam Respublikasının Naxçıvanda konsulluqları fəaliyyətə başlayıb.

Muxtar respublikanın dağılmış iqtisadiyyatının, xüsusilə də kənd təsərrüfatının dirçəldilməsi istiqamətində də mühüm tədbirlər həyata keçirilib. Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai malqarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul edilib. Bu qərarların qəbul edilməsi hazırkı dövrdə muxtar respublika iqtisadiyyatının aparıcı sahələrindən biri olan kənd təsərrüfatının inkişafını şərtləndirən ilk mühüm amil olaraq Azərbaycanda torpaq islahatı ilk dəfə Naxçıvanda aparılıb.

Vurğulanıb ki, 1992-ci il noyabr ayının 21-də Naxçıvanda ölkəmizin ictimai-siyasi həyatı, gələcəyi üçün daha mühüm bir hadisə baş verdi: müstəqil Azərbaycanın qüdrətli partiyası olan Yeni Azərbaycan Partiyası yaradıldı. Ciddi ictimai sifarişin nəticəsi kimi zamanın çağırışlarına cavab vermək məqsədilə yaradılan partiya ölkədəki və regiondakı ictimai-siyasi proseslərin əks-sədası olaraq, başlıcası isə xalqın arzu və istəklərinin reallaşdırılması üçün siyasət meydanında qısa zaman ərzində böyük nüfuz qazandı.

Qeyd olunub ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev irsinin yaşadılması, onun siyasətinin alternativsizliyinin birmənalı şəkildə qəbul edilməsi dahi şəxsiyyətin ideyalarının həmişəyaşarlığı ilə əlaqədardır. Ölkəmizin dahi rəhbər Heydər Əliyevin müəyyənləşdirdiyi yolla gedərək fövqəladə uğurlar qazanması faktı da Onun şəxsiyyətinin nəhəngliyini əyani şəkildə təsdiq edir. Bütün bunlar sübut edir ki, görkəmli dövlət xadiminin qiymətli irsi ölkəmizin müasir inkişafının əsasını təşkil edir. Bu gün həmin ideyalar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.

Tədbirdə Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının şura üzvü Tahir Məmmədov, Çalxanqala kənd ərazi ilk partiya təşkilatının sədri Etiram İbrahimov çıxış ediblər.

Sonda ümummilli liderin həyat və fəaliyyətini əks etdirən "Dahi Şəxsiyyət" filminə baxış olub.

**Babək İSMAYILOV**

*Naxışnərgiz muxtar respublikamızda o qədər də böyük olmayan yaşayış məntəqələrindən biridir. Babək rayonunun ərazisində, Qahab kəndinin yaxınlığında, dağların aşağı ətəklərinə sığınmış yurd yeridir. Bu kəndin maraqlı bir tarixçəsi var. Belə ki, Naxışnərgiz kəndinin əhalisi, indiki sakinlərin ulu babaları bu yerdən xeyli aralıda, Nəhəcir dağının ətəklərində, füsunkar bir yerdə yaşayıblar. Qədim yurd yerləri olan Naxışnərgiz və Süraməlik bir-birinin yaxınlığında olan səfalı kəndlər, sazlı-sözlü aşıqları, el ağsaqqalları, xanım-xatın ağbirçəkləri ilə seçilən dağ kəndləri idi. Bu kəndlərdə toxunan xalçalar, kilim və palazlar adla deyilərmiş. Bağ-bağçalardakı meyvələrin dadı-tamı bambaşqa imiş.*

*Müasirləşən kəndlərimiz*

# Qədim yurd yerlərimizdən biri – Naxışnərgiz bu gün müasirliyə qovuşub



Lakin sonralar çətinliklər yaranıb, əhalinin yaşayışında, güzəranında problemlər baş qaldırıb, ən başlıcası isə təsərrüfat və içməli su qıtlığından sakinlər tədricən bu yerləri tərk edib, indiki Naxışnərgiz kəndində və ətraf yaşayış məntəqələrində məskunlaşıb.

Bəs bu kəndə niyə Naxışnərgiz adını veriblər? Yaşı 80-ə yaxın olan kənd ağsaqqalı İsmayıl Zamanov deyir ki, bir vaxtlar bu kənddə Nərgiz adlı bir qadın yaşayırmış. Xalça toxuyurmuş. Onun toxuduğu xalçalar keyfiyyətinə, rəng çalarlarına, cizgilərinə görə seçilərmiş. O, bu xalçaların ipliyini yerli balbas cinsli qoyunların yunundan hazırlayar, onları cəhrədə əyirərmiş. Nərgiz nənə bu iplərə yurd yerlərinin təbiətindən, geniş düzlərindən topladığı güllərdən, çiçəklərdən rəng qatarmış. Xalçaçı qadın əl işinə fərqli ilmələr vurar, mürəkkəb toxunuşa malik xalçalar toxuyarmış. Bu xalçalardan biri o vaxtlar keçirilən sərgilərin birində mükafata layiq görülmüşdür.

Deyilənə görə, həmin xalça indi də Sankt-Peterburq muzeylərinin birində qorunub saxlanılır. Kəndin yaşlı adamlarının dediyinə görə, elə o vaxtdan da bu ərazi Naxışnərgiz adlandırılıb. Onu da qeyd edək ki, kəndin indiki sakinləri də zəhmətkeş, torpağa, əməyə bağlıdırlar. Sənəti, sənətkarı qiymətləndirən, adət-ənənələri yaşadandırlar. Bu kənddə 1898-ci ildə məscid binası da inşa olunub. Qədim Pir hesab edilən yer də bu kəndin ərazisindədir.

### *Naxışnərgiz müstəqilliyin işığına bürünüb*

Bu kiçik yaşayış məntəqəsində 178 təsərrüfat və 921 hektar ümumi torpaq sahəsi var. Naxışnərgizdə 635 sakin yaşayır. Kənd əhalisinin əksəriyyəti əkinçilik, taxılçılıq, heyvandarlıq və arıçılıqla məşğul olur. Yay günlərində əkin sahələrində qaynarlıq müşahidə edilir. Bu xoş görüntülər bizi zəhmətkeş insanların, torpaq adamlarının yanına çəkib gətirdi, onlarla elə geniş tarlalarda, bərəkət qoxuyan, çəkilən zəhmətin bəhrəsi görülən ərazilərdə həmsöhbət olmaq istəyi yarandı.

Torpaq mülkiyyətçisi Zaman Zamanovla əkin sahəsində görüşüb, hal-əhval tuturuq. Dolanışığından, kəndin müasirləşməsindən həvəslə danışır. Gördüyü işin müqabilində yaxşı qazancı olduğunu deyir. Taxıl, yonca, tərəvəz əkir, heyvandarlıqla məşğul olur.

56 yaşlı təsərrüfat adamı Bulud Nəcəfovla da həmsöhbət oluruq. Otlu, sulu sahəyə düzdüyü arı ailələrinə qulluq göstərir. Bərəkətli olsun, – deyib salamlaşırıq. Deyir ki, 25-dən artıq arı ailəsi var. Bu peşəni nəsillikcə davam etdirirk. Atam, babam arıçılıqla məşğul olublar. Zəngin təbiətimiz var. Arıçılıq üçün sərfəlidir. Bu sahə ilə məşğul olanlara dövlət qayğısı da göstərilir. Baytar həkimləri də mütəmadi olaraq gəlib arı və heyvandarlıq təsərrüfatlarına baxır, profilaktik tədbirlər görürlər. Övladlarımı da torpağa bağlı ruhda tərbiyə etmişəm. Məhsullarımızın isə dadına, tamına söz ola bilməz. Təsərrüfat suyu da boldur.

Bəli, bu şəraitdə kim pis dolanırsa, günah onun özündədir. Torpağı iş yeri hesab edirəm. Kifayət qədər torpaq var, təsərrüfat suyu var, əkinçilik üçün texnikalarımız, istehsal etdiyimiz məhsulun da alıcısı var. 15-20 il bundan əvvəl çətinliklərimiz olurdu, amma bu gün onların hamısı arxada qalıb.

### *Çörək ətri*

Kənddə 2012-ci ildə müasir-tipli çörəkbişirmə sexi də fəaliyyətə başlayıb. Sahibkar Yusif Zamanov deyir ki, əvvəllər həyətlərimizdə təndirlər qalanardı, çörək bişirilərdi. Amma indi müasirtipli lavaşbişirmə sexi qurmuşuq. 5 nəfər kənd sakini burada işlə təmin olunub. Çörəkbişirmə texnologiyasına yaxından bələd olan qadınlar yerli taxılın unundan ətirli, dadlı-tamlı çörəklər ərsəyə gətirirlər. Lavaşdan əlavə, dəstana, çıppa, qalın və digər çörəklər də bişirir, yerli undan əriştə də kəsirik.

“Rəhimə” lavaşbişirmə sexindəki səliqə-sahman göz oxşayır. Xalat geyinmiş qadınlar xüsusi həvəslə xəmir yoğurur, kündələyir, onu müasir avadanlıqların köməyi ilə bişirirlər.

Sahibkarın həyət-bacası da bolluqdan, xoş güzərandan xəbər verir. Həyətdə dadlı-tamlı meyvələr yetirən alma, armud, cəviz, heyva, nar ağacları sıralanıb. Rəngbərəng güllərin, çiçəklərin ətri ətrafa yayılıb.

Bu yerdə daha bir torpaq adamının evində olduq, nahar süfrəsinə qonaq edildik. Süfrədəki nemətlər onun özünün yetişdirdiyi təbii məhsullardır. Naxışnərgizdə təndirlərdən istifadə edilib-edilməməsi ilə maraqlandıq. Dedilər ki, təndir salınan, lavaş, dəstana, çıppa, qalın bişirilən evlər var. Elə bu gün Qəzənfər Qurbanovun evində də təndir salınıb.

Maraq bizi həmin ünvana çəkdi. 4 nəfər qadın səliqə-sahmanlı təndirəsər deyilən yerdə çörək yapırdılar. Təbii ki, çörəyin ətri də uzaqdan hiss olunurdu. Burada yaşı 85-i ötmüş Quba nənə dedi ki, biz həmişə öz taxılımızın unundan təndir çörəkləri bişirmişik. Təbii məhsullarımızın isə əvəzi yoxdur. Təndir lavaşı da onlardan biridir. Məni qıvraq saxlayan da zəhmətkeş, işgüzar olmağım, bir də ki, təbii qidalardır. Bütün bunların hamısı sağlamlığın rəhnidir.

### *Ağsaqqal sözü, ağbirçək öyüdü*

Daha bir həyətdə olduq. Evin sahibi İsmayıl kişi söhbətinə belə başladı:

– Yaşım səksənə yaxınlaşsa da, özümü qıvraq hiss edirəm. Həmişə də torpaqla, zəhmətlə, iş-güclə məşğul olmuşam, təbii qidalar qəbul etmişəm. İndinin özündə də tezdən oyanıram, mal-heyvanı naxıra ötürürəm. Beləcə, təsərrüfat qayğılarım başlayır. Gənclərimizə həmişə tövsiyə etmişəm ki, iş insanın cövhəridir. Çalışsan, zəhmət çəksən bəhrəsini də görərsən. Sağ olsunlar, sözümüzü eşidirlər. Kəndimizin gəncləri qoçaqdırlar, zəhmətkeşdirlər, qurub-yaradır, fərdi təsərrüfatlarını genişləndirirlər. İndiki dövrdə kimin ruzi-bərəkəti azdır, demək ki, o, tənbəldir.

Söhbət məqamında İsmayıl kişinin ömür-gün yoldaşı Səhər xanım da gəlir.

– İsmayıl kişi, yəqin ki, qonaq gözləyirdiniz? – deyə soruşuruq:

– Bizdə may ayından ta dekabra kimi stol-stulumuz həyətdə olar. Bax sözümüzü o qədim samovar ki, görürsünüz, qış aylarına kimi həyətin yuxarı tərəfindədir. Elə gün olmaz ki, samovarı bir-iki dəfə salmayaq. Səhər xanımla birlikdə çox mehriban bir ailəmiz var. Zarafat deyil, 10 övlad böyüdüb ev-eşik etmişik. Sovetin dövründə 10 uşağı olan qadınlara qəhrəman ana deyirdilər. Nəvə-nəticəmizin sayı isə 40-a yaxındır. Bu gün-sabah kötücə sevincini də yaşayacağıq. Xoşbəxtlik, firavan həyat hər kəsin öz əlindədir. Gərək ona sahib olmağı bacarasan. Süfrədə gördüyünüz bütün bu nemətlər kənd məhsulları, təbii qidalardır, Səhər xanımın əl səliqəsidir.

Söhbətimizə Səhər xanım da qoşulur: – Ömrümüzü-günümüzü dağda-daşda, oba yerlərində, güllü-çiçəkli yamaclarda keçirmişik. Nehrədə yağ, şor-kərə tutmuşuq, pendir vurmuşuq, balımızın əvəzi yoxdur. Nehrəni, cəhrəni bu gün də qoruyub saxlayırıq. Qız-gəlinlərimizə xalça toxumağı da öyrətmişik. Qədim adət-ənənələrimiz yaşadılır, nəsildən-nəslə ötürülür.

### *Ziya ocağı – müasirtipli kənd məktəbi*

Uzun illər Naxışnərgizdə məktəb binası olmayıb. Kənd uşaqları qonşuluqdakı Qahab məktəbində təhsil alıblar. 2014-cü ilin dekabrında isə bu kiçik yaşayış məntəqəsində mühüm infrastruktur layihələri reallaşdırılıb, kompleks quruculuq işləri aparılıb. İkimərtəbəli kənd mərkəzi və 3 mərtəbəli, 234 şagird yerlik məktəb binası inşa olunub, xidmət mərkəzi istifadəyə verilib. İndi sakinlər tez-tez bir mərkəzə gəlir, qısa vaxtda işlərini həll edirlər. Qeyd edək ki, kəndin gələcək inkişaf perspektivinə hesablanan bu yeni binaların xidmətindən qarşıdakı onilliklər ərzində səmərəli şəkildə istifadə etmək mümkün olacaq.

Naxışnərgiz kənd tam orta məktəbində 182 şagird təhsil alır. Onların təlim-tərbiyəsilə 25 müəllim məşğul olur. Burada kimya, biologiya, fizika laboratoriyaları, müxtəlif fənn kabinələri, elektron lövhəli siniflər, müasir kompüterlər quraşdırılmış sinif otaqları vardır.

***

Bəli, bir vaxtlar Nərgiz nənənin böyük həvəslə, ustalıqla toxuduğu o qiymətli xalçanın naxışlarını, rəng çalarlarını indi Naxışnərgiz kəndinin özündə, təbiətində, yolunda, yeni binalarında, bağ-bağçasında görə bilirsən. Kəndətrafı yüksəkliklərdən baxanda sanki təbiət bu yerdə gözəl bir xalı sərib. Yay fəslinin ana təbiətə çəkdiyi rəng çalarları da gözəldir. Sanki təbiətin qoynunda, Naxışnərgiz adlı məkanda böyük bir xalı canlı olaraq torpağın üzərinə ilmələnib. Bu tablonun müəllifləri isə zəhmətkeş Naxışnərgiz kəndinin sakinləridir.

**Məhəmməd FƏRƏCOV**
*Naxçıvan Dövlət Radiosunun baş redaktoru*

---



*İstehsal müəssisələri*

# Mebel istehsalı müəssisələri keyfiyyətli materiallarla təmin olunur

***Sahibkarlığa göstərilən qayğıdan “Dekor Qrup” Məhdud Məsuliyyətli Cəmiyyətinə də pay düşüb. Belə ki, səmərəli fəaliyyət üçün əlverişli yerdə – Naxçıvan dairəvi avtomobil yolunun kənarında ayrılan 15 min kvadratmetr ərazidə 3 istehsal sahəsi, ayrı-ayrı iş otaqları, sərgi-satış salonu olan inzibati bina, iaşə xidməti göstərilməsi üçün yeməkxana istifadəyə verilib.***

Müəssisədə texnoloji proseslərə və texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunur. İstehsal prosesi konveyer üsulu ilə təşkil edilib, keyfiyyətli məhsul istehsalı üçün əlverişli şərait yaradılıb. İş prosesində insan amilinə üstünlük verilir, işçilərin sağlamlıqlarına xüsusi diqqət yetirilir. Bu məqsədlə müəssisədə havalandırma sistemi qurulub. Bu da istehsal prosesi zamanı yaranan toz və tullantıların kompressorlar vasitəsilə sexdən kənarlaşdırılmasına və xüsusi bunkerlərə yığılmasına imkan verir. Layihəyə uyğun olaraq, laminat-mətbəx dəzgahı, PVC akrilik parlaq panellər, boyalı MDF və DSP istehsal olunur. Artıq laminat-mətbəx dəzgahı və PVC akrilik parlaq panellər, boyalı MDF və DSP istehsalı sahələrində İtaliyanın “Omma”, İspaniyanın “Barberan” markalı boya xətti, Almaniyanın “İDM”, Türkiyənin “AS Metal” və “Türk makina” şirkətlərinin istehsalı olan və kompüterlə idarəetmə mərkəzi ilə təmin edilən müasir texnoloji avadanlıqlar alınıb, quraşdırılıb. Bütün işlər avtomatlaşdırılıb. İstehsal sahələrinin hər birinin ayrılıqda aylıq istehsal gücü 10 min ədəddir. Burada xammal ayrı-ayrı mərhələlərdən keçməklə rəng olaraq 200 çeşiddən çox məhsul istehsal edilir. Əvvəllər muxtar respublikamızda fəaliyyət göstərən mebel istehsalı müəssisələrinə hazır materiallar xarici ölkələrdən idxal olunurdu. Buna əlavə daşınma xərci çəkilirdi. Bu müəssisənin fəaliyyətə başlaması ilə həmin problemlər aradan qaldırılıb, istehsal müəssisələri vaxtında və keyfiyyətli mebel materialları ilə təmin olunub.

“Dekor Qrup” Məhdud Məsuliyyətli Cəmiyyətinin məhsullarına tələbat artmaqdadır. Həmin tələbatın ödənilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir. Bu məqsədlə müəssisə tərəfindən ağac yonqarları lövhələrinin boyanması və anbar binaları layihələri hazırlanıb. Müasir tələblərə cavab verən anbar binası inşa olunub, ətrafında abadlıq işləri aparılıb, yola asfalt-beton örtüyü salınıb. Bu da xammal və hazır məhsulların müəyyən olunmuş şəraitdə saxlanılmasına və istehsal müəssisələrinə vaxtında göndərilməsinə əlverişli şərait yaradıb. Müəssisə xammal və hazır məhsulların vaxtında daşınmasını təmin etmək üçün “DAF” markalı ağırtonnajlı yük avtomobilləri alıb.



Əgər istənilən müştəri güvənib müraciət edirsə, bu, artıq əməkdaşlar üçün böyük məsuliyyət deməkdir. Materiallar həm daxildən gəlir, həm də xaricdən idxal olunur. Onların çeşidi və təyinatı da çoxdur. Laminat, MDF, Panel PVC yapışqandan istifadə olunur. Hər hansısa mebel üçün müraciət edənlərə istədiyi məhsula görə istifadə ediləcək material haqqında məlumat verilir. Və ya zövqlərinə uyğun mebellər üçün bir neçə material təklif edilir, onlar isə öz seçimlərini edirlər. Maksimum şəkildə çalışılır ki, müştərinin bütün maraqlarına cavab verilsin.

Müəssisənin fəaliyyətə başlaması daxili bazarın keyfiyyətli məhsullara olan tələbatını ödəməklə yanaşı, əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayır. Müəssisə texnoloji avadanlıqlardan səmərəli istifadə etməyi bacaran ixtisaslı mütəxəssislərin hazırlanması işini də diqqətdə saxlayır. İşçilərin Türkiyə Respublikasında ixtisasartırma kurslarında iştirakı təmin olunub. Gələcəkdə müəssisədə yeni istehsal sahəsinin – melamin örtüklü plitələr istehsalı sahəsinin istifadəyə verilməsi nəzərdə tutulur. Bunun üçün mebel avadanlıqları istehsalında qabaqcıl təcrübəyə malik, Almaniyanın dünyada məşhur olan “Wemhoner” şirkətinin avadanlıqları alınıb gətiriləcək və idxal olunan dəzgahlar həmin şirkətin mütəxəssisləri tərəfindən quraşdırılacaqdır. Melamin örtüklü plitələr istehsalı sahəsi istifadəyə veriləndən və müəssisə tam gücü ilə işləyəndən sonra işçilərin də sayı xeyli artacaq.

Müəssisə ilə tanışlıq zamanı onu da öyrəndik ki, araşdırma əməkdaşların işinin bir hissəsidir. Mövcud bazarda ən yaxşı olanlar üzə çıxarılır, müştərilərə onlarla fərqli, kreativ, sadə, klassik, modern materiallar təklif edilir. Buna görə də məhsulları ilk dəfə görənlər çox təəccüblənirlər. Seçilən materiallar fərqli olduğu üçün hər kəsi cəlb edə bilir. Müştərilər daha çox kreativ materiallara üstünlük verirlər. Çünki belə materiallar həm gözoxşayan olur, həm məkanın interyerinə fərqlilik qatır, həm də istifadəsi çox maraqlı olur. Məhsulların arasında da çoxluq təşkil edən elə kreativ, maraqlı, fərqli olan materiallardır. Digər materiallar da həm funksionallığa, həm də gözəl və fərqli dizayna malikdirlər.

Sonda onu da qeyd edək ki, müəssisədə istehsal olunan keyfiyyətli məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, ölkəmizin digər regionlarında da satışa çıxarılır, gələcəkdə xarici ölkələrə də ixrac olunması nəzərdə tutulur. Hazırda bu istiqamətdə işlər görülür. Belə ki, bu sahə üzrə qabaqcıl şirkətlərlə təcrübə mübadilələri aparılır, biznes əlaqələri qurulur.

**Nail ƏSGƏROV**

***Bu günlərdə muxtar respublikamızda intellektual gələcəyimizin daha mükəmməl şəkildə formalaşdırılmasına hesablanmış mühüm bir addım atıldı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə “Oxunması zəruri olan kitabların Siyahısı”nın təsdiq edilməsi təkcə muxtar respublikamızın deyil, ölkəmizin təhsil işçiləri, tanınmış ziyalıları tərəfindən alqışlarla qarşılandı. Hər kəs həmin siyahıda yer alan 30 kitabın hamısının mükəmməl seçim olduğu qənaətini bölüşdü. Çünki bu kitablar gənc nəsildə vətənpərvərliyin, tarixə, milli köklərə bağlılığın formalaşdırılmasına əsaslı təsir göstərəcək ideoloji mənbələr rolunu oynayır, onların kənar təsirlərdən qorunması üçün dünyagörüşünü zənginləşdirir, dövlətə, dövlətçiliyə, Vətənə, xalqa bağlılıq hisslərini aşılayır.***



# Oxunması zəruri olan kitablar gənc nəsildə vətənpərvərliyin, tarixə, milli köklərə bağlılığın formalaşmasına əsaslı təsir göstərəcək

Kitab və mütaliənin təbliği bu gün xüsusi əhəmiyyət kəsb edən məsələlərdən biridir. Çünki bu məsələ uşaqların, yeniyetmə və gənclərin, ümumilikdə isə cəmiyyətimizin və dövlətimizin gələcəyi ilə bağlıdır. Ona görə də əhalinin bütün kateqoriyalarının kitabxanalara cəlb edilməsi işinə əhəmiyyət verilməklə yanaşı, əsas diqqət uşaq, yeniyetmə və gənclərin mütaliəsinə yönəldilir. Uşaq və yeniyetmələrin mütaliə xarakteri isə hər gün dəyişir: uşaqlar üçün kitabı müstəqil seçmək heç də həmişə asan olmur. Yəni mütaliəyə yeni başlayan istənilən oxucu bəzən özü də nə istədiyini, nə oxuyacağını bilmir. Təbii ki, əgər söhbət məktəb tapşırığından, konkret mövzu və ya artıq formalaşmış maraqdan gedirsə problem yaranmır. Lakin sərbəst oxu zamanı kitab seçimi asan olmur və mütəxəssis köməyinə ehtiyac yaranır. Bu mənada, hər hansı bir kitabın və ya kitabların tövsiyə olunması böyük əhəmiyyət kəsb edir.

Ekspertlərin ümumi rəyi budur ki, müasir dövrümüzdə informasiyanın axtarışı, seçilməsi, qiymətləndirilməsi vərdişlərinə yiyələnmədən həyat və fəaliyyətin istənilən sahəsində uğur əldə etmək qeyri-mümkündür. Bu vərdişlərin reallaşması üçün şəxsin mütaliə və informasiya mədəniyyətinin yüksək səviyyədə olması mühüm şərtdir. Bunun üçün başlanğıcda Siyahıda qeyd olunan oxunması zəruri olan kitablara üstünlük verilməsi fərdin sonrakı seçimlərinin düzgün olmasına zəmanət verir.

Mütaliənin məqsədləri müxtəlif ola bilər. Məsələn, təhsil, funksional savadlılığın, ümumtəhsil bacarıqlarının formalaşdırılması, yeni biliklərin öyrənilməsi, idraki tələbatın ödənilməsi, yaradıcı fəallığın stimullaşdırılması, ədəbi qəhrəmanların təcrübəsinin mənimsənilməsi yolu ilə şəxsiyyətin sosial inkişafı və sair bunlardan bir neçəsidir. Yəni unutmaq olmaz ki, mütaliə mədəniyyəti şəxsin informasiya mədəniyyətinin tərkib hissələrindən biri kimi sosial əhəmiyyətli və digər məqsədlərə nail olmaq üçün məqsədyönlü mütaliə üzrə bilik, bacarıq və vərdişlərin məcmusudur. Ona görə də mütaliəyə sövqetmə intellektual inkişafın təkanverici qüvvəsinə çevriləcək ki, bu da insanların mədəni ünsiyyətinə, gənclərin doğru peşə seçiminə, faydalı işlə məşğul olmalarına gətirib çıxaracaq. Çünki bütün biliklərin və mənəvi dəyərlərin ilkin mənbəyi kitablardır. Kitablar insanın ruhunu təmizləyir, həyata tamam başqa gözlə baxmağa vadar edir, cahili müdrikləşdirir, nitqi məntiqlə zənginləşdirir. Onlar hər zaman yanımızdadır, ən sadiq dostlarımızdır. Hər hansı bir məlumat öyrənmək istəsək, kitablar köməyimizə çatır, bütün suallarımızı cavablandırır. “Oxunması zəruri olan kitabların Siyahısı”nda yer alan kitablar bu baxımdan da önəmlidir.




Digər tərəfdən, yaşadığımız dövrün siyasi, iqtisadi, hüquqi və ekoloji məsələləri gənc nəslin təlim-tərbiyəsində bir sıra istiqamətlərə diqqət yetirilməsini zərurətə çevirir. Buna görə də, məqsədyönlü maarifləndirmənin davam etdirilməsi, gənc nəslə zəngin milli və mənəvi dəyərlərimizin aşılanması, onların ictimai həyata adaptasiyası üçün lazımi addımların vaxtında atılması, xalqımızın adət-ənənələrini, tarixini, mədəniyyətini dolğun şəkildə əks etdirən kitabların oxunması təmin edilməli, gəncliyimizin bu gündən sağlam ruhda tərbiyə edilməsi prosesi diqqətdə saxlanılmalıdır. Bu baxımdan ziyalılarımız “Oxunması zəruri olan kitabların Siyahısı”nda yer alan nəşrləri bu nöqteyi-nəzərdə əsaslı mənbə hesab edirlər.

Məsələn, həmin siyahıda birinci sırada yer alan kitab Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Yeni 2001-ci il, Yeni əsr və Üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətidir. Bu müraciətdə milli tariximizin bütün dövr və mərhələlərinə yüksək peşəkarlıqla qiymət verilib, geridə qalan əsrlərdə baş vermiş ictimai-siyasi proseslər barədə obyektiv mülahizələr səsləndirilib və gələcək inkişaf yolları müəyyənləşdirilib. Digər tərəfdən, “Kitabi-Dədə Qorqud” dastanı, Nizami Gəncəvinin “Sirlər xəzinəsi” poeması, “Nizaminin hikmət və nəsihətləri”, Nəsirəddin Tusinin “Əxlaqi-Nasiri”, Məhəmməd Tağı Sidqinin “Məktəb hekayələri”, Hüseyn Cavidin “Azər” poeması, Cəlil Məmmədquluzadənin “Hekayələr”, Məmməd Səid Ordubadinin “Qılınc və qələm” romanı və adını qeyd etmədiyimiz digər mühüm kitabların hər biri tərbiyəvi əhəmiyyəti ilə seçilməklə yanaşı, insanın mənəvi cəhətdən zənginləşməsinə, adət-ənənələrimizə, milli əxlaqi dəyərlərimizə sədaqətli olmasında, dünyagörüşünün formalaşmasında əsaslı rol oynayırlar. Siyahıda qeyd olunan kitabları oxuyan istənilən gənc Vətənə olan sevginin müqəddəsliyini dərindən anlayacaq, Vətən, xalqı naminə çalışacaq, cəmiyyətə yararlı bir fərd kimi ölkəmizin inkişafında iştirak edəcək, müstəqil bir dövlətdə yaşamağın əhəmiyyətini dərk edəcək, kənar təsirlərə qarşı onda milli immunitet yaranacaqdır.

Görkəmli fransız filosofu və yazıçısı Deni Didro deyirdi: “Hər kim kitab oxumursa, o, düzgün fikirləşə bilməz”. Doğrudan da, ən dərin bilik, elmi dünyagörüşü, Vətən sevgisi məhz mütaliə yolu ilə yaranır. Vətəni naminə inamla çalışan, fədakarlıq göstərən böyük şəxsiyyətlərin həyatlarına nəzər yetirdikdə, onların hərtərəfli inkişafında mütaliənin əhəmiyyətli rol oynadığını aydın şəkildə görmək mümkündür. Ulu öndərimiz Heydər Əliyevin kitaba və mütaliəyə verdiyi dəyər bu baxımdan ən gözəl nümunədir. Azərbaycan mədəniyyətinin inkişafına, milli və mənəvi dəyərlərimizin mühafizə olunaraq gələcək nəsillərə çatdırılmasına böyük diqqət və qayğı ilə yanaşan ümummilli liderimiz kitab nəşrinə, mütaliə mədəniyyətinin inkişafına həmişə böyük qayğı göstərib. Kitabı mənəvi zənginliyin və elmlərə yiyələnməyin mühüm açarı hesab edən dahi şəxsiyyət daima gəncləri və ətrafındakı insanları mütaliə etməyə dəvət edib, həyatda kamil insan kimi yetişməyin, zəngin biliklərə yiyələnməyin yeganə yolunun mütaliədən keçdiyini vurğulayıb.







Məlum səbəblərdən kitab çapının azaldığı illərdə – 1995-ci ildə öz şəxsi kitabxanasından 300 nüsxədən çox qiymətli kitabı Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanasına hədiyyə edən ulu öndərimiz həmişə gənclərə biliklərini artırmağı tövsiyə edib. Onun Milli Kitabxananın fonduna bağışladığı kitab kolleksiyasının tərkibinə nəzər salarkən oradakı çoxsahəlilik və yüksək mütaliə mədəniyyəti diqqəti cəlb edir. Həmin kitabların içərisində incəsənətə, mədəniyyətə, arxitekturaya, Azərbaycan tarixinə, coğrafiyasına, ədəbiyyatşünaslığa, milli adət və ənənələrimizə, kənd təsərrüfatına, İslam dininə və müxtəlif dinlərə, dünya ölkələrinin tarixinə və ictimai həyatına, Qarabağın tarixinə və probleminə dair Azərbaycan, rus və dünya klassiklərinin və müasir yazıçıların əsərlərinə, uşaq ədəbiyyatı nümunələrinə və digər nəşrlərə rast gəlmək olur.

Ulu öndərin bütün elmlərə vaqif olduğunun hər birimiz dəfələrlə şahidi olmuşuq və bir sıra xarici jurnalistlərin Ona verdikləri – “Siz hər bir sahənin mütəxəssisi ilə onların özü kimi mühakimə yürüdə bilirsiniz. Bu qabiliyyət Sizdə haradandır?” – sualına dahi rəhbər cavab verdi ki, ***“Hər sahəyə dair çoxlu sayda kitab oxumaq və zəngin həyat təcrübəsinə malik olmaq lazımdır”.***

Məhz buna görə də aqillər kitabı bilik, zəka, idrak mənbəyi, kamillik vasitəsi hesab edirlər. Çünki insanlar ən yüksək keyfiyyətləri, əsl təhsili yalnız mütaliə etməklə qazanırlar.

Kitab oxumaq insanın ruhunu qidalandıran, daxilindəki mənəvi boşluğu dolduran çox əhəmiyyətli bir vasitədir. Bütün istiqamətlərdə inkişafın ancaq elmi əsaslarla mümkün olduğu müasir dövrdə cəmiyyətimizdə mütaliə mədəniyyətinin inkişafı xüsusilə əhəmiyyət kəsb edir.

Bu gün dövlət tərəfindən insanların kitab oxumağı, mütaliə etməyi üçün hər cür şərait yaradılıb. Oxucunun hərtərəfli biliyə sahib olması üçün dünyanın əksər qabaqcıl elm və ədəbiyyat xadimlərinin əsərləri muxtar respublikamıza gətirilib və bu proses davam edir. Əvvəllər ölkədə, o cümlədən qədim diyarımızda Azərbaycan dilində kitab azlıq təşkil edirdisə, indi belə bir problem birmənalı şəkildə yoxdur. Muxtar respublikamızın istənilən kitabxanasında müxtəlif sahələrə aid ədəbiyyat tapmaq mümkündür. 2016-cı ilin statistik göstəricilərinə əsasən, muxtar respublikada kitabxana fondlarının sayı 2 milyon 126 min 300 nüsxə çap məhsulu təşkil edir. Bu, sovet dövründə muxtar respublikada mövcud olan kitabların sayından 100 dəfəyədək çoxdur. 2017-ci ilin yanvar ayından etibarən isə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən kitabxanalara 10 min 898 nüsxə çap məhsulu paylanıb. Hazırda Naxçıvan şəhərində yerləşən Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının fondunda 86 min 310 xarici, 80 min 43 Azərbaycan dilində olmaqla, ümumilikdə, 166 min 353 nüsxə çap məhsulu mühafizə olunub saxlanılır. Onu da vurğulayaq ki, bu gün bəzi ölkələrdə Naxçıvan Muxtar Respublika Kitabxanasındakı kitabların sayı qədər, bəzi ölkələrin şəhərlərində isə muxtar respublikanın istənilən dağ kəndinin kitabxanasında olan kitabların sayı qədər nəşr yoxdur.

Yeri gəlmişkən, müxtəlif növ informasiya resurslarını mühafizə edib ictimai istifadəyə təqdim edən, oxuculara kitabxanalardan, kitab və digər informasiya mənbələrindən istifadə qaydalarını öyrədən kitabxanalar mütaliənin təbliği prosesində mühüm rol oynayırlar. Müasir kitabxana istifadəçilərin və bütün yerli əhalinin mütaliəyə olan tələbatını ödəyir, mütaliə və informasiya mədəniyyətini formalaşdırır. Dahi şəxsiyyətin ***“Kitabxana xalq, millət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir...”*** sözləri bu gün muxtar respublika timsalında öz təsdiqini tapıb.

Cəmiyyətin inkişafında, şəxsiyyətin formalaşmasında böyük rol oynayan vasitə kitab olduğu kimi, həmin vasitə ilə oxucu arasında körpü yaradan da məhz kitabxanalardır. Bu gün muxtar respublikamızın bütün bölgələrində mütaliə mərkəzləri sayılan belə mədəniyyət müəssisələri fəaliyyət göstərir. Hazırda doğma diyarımızda 234 kitabxana 160 mindən çox oxucusuna uğurla xidmət göstərir.

Ötən illər ərzində Naxçıvan Muxtar Respublikasında kitabxana işinin müasir standartlar səviyyəsində qurulması diqqət mərkəzində saxlanılıb və muxtar respublikada kitabxanaların elektronlaşdırılması üçün məqsədyönlü addımlar atılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının 90 illik yubileyinin keçirilməsi haqqında” 19 aprel 2012-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına əsasən, Naxçıvan Muxtar Respublika Kitabxanasının bazasında Elektron kitabxana yaradılıb.

2012-ci il dekabrın 3-də Məmməd Səid Ordubadinin 140 və ədibin adını daşıyan Naxçıvan Muxtar Respublika Kitabxanasının 90 illik yubiley tədbirləri keçirilib, elektron kitabxananın təqdimatı olub, *www.e-kitab.nakhchivan.az* internet saytı istifadəyə verilib.

Elektron arxiv və elektron kitabxana sisteminin yaradılması istiqamətində növbəti addım isə Naxçıvanşünaslıq Mərkəzinin istifadəyə verilməsi olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 17 fevral tarixli Sərəncamı ilə Naxçıvanşünaslıq Mərkəzi yaradılıb. Mərkəz, onun kitabxanası və arxivi ən müasir informasiya avadanlıq və daşıyıcıları ilə təmin olunub, elektron kitabxana və elektron arxiv yaradılıb, internet saytı fəaliyyətə başlayıb.

2013-cü ildə Naxçıvan Dövlət Universitetinin Elektron kitabxanasının açılışı olub, yeni internet saytı təqdim edilib. Həmin il sentyabrın 4-də isə muxtar respublikamızda daha bir elektron kitabxananın – Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin Elektron kitabxanası və internet səhifəsi istifadəçilərə təqdim edilib. Göründüyü kimi, elektron kitabxananın yaradılması və inkişafı istiqamətində muxtar respublikada əhəmiyyətli işlər görülüb. Bu da lazım olan kitabların elektron resurslardan əldə edilməsinə də şərait yaradıb.

*Bütün görülən bu işlər, heç şübhəsiz ki, informasiya cəmiyyətinin inkişafına, gələcəyimiz olan gənclərin hərtərəfli bilik və dünyagörüşünə malik gənclər kimi yetişməsinə əhəmiyyətli təsirini göstərir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı bu istiqamətdə görülən işlərin davamı olmaqla yanaşı, həm də gənclərin Azərbaycançılıq ideologiyasına bağlı, Vətənə, xalqa sədaqət ruhunda tərbiyəsində mühüm rol oynayacaqdır.*

**Rauf KƏNGƏRLİ**

## Muzey fondlarının zənginləşdirilməsində səmərəli fəaliyyət göstərən Akif Hacıyevlə görüş keçirilib



Naxçıvan Dövlət Xalça Muzeyində keçirilən görüşü giriş sözü ilə muxtar respublikanın mədəniyyət və turizm naziri Natəvan Qədimova açaraq bildirib ki, muzey işinin inkişaf etdirilməsində Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Sədrinin imzaladığı çoxsaylı sərəncamlar mühüm rol oynayıb. "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyul tarixli Sərəncamına əsasən təhsil müəssisələri ilə muzeylər arasında interaktiv əlaqələr təşkil olunur, məktəb muzey şöbələri vasitəsilə onlayn dərslər keçilir. Nazir "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul tarixli Sərəncamın icrası istiqamətində görülən işlərdə də danışıb. Qeyd edib ki, Ali Məclis Sədrinin muzeylərlə əlaqələrin gücləndirilməsi haqqında 2014-cü il 19 dekabr tarixli Sərəncamı muzeylərlə əlaqələrin qurulmasında mühüm rol oynayıb.

Diqqətə çatdırılıb ki, zəngin mədəni irsimizin qorunması və təbliği ilə bağlı görülən işlər ardıcıl olaraq həyata keçirilir. Bu sahədə muzeylərimizin zənginləşdirilməsi, maddi-mədəniyyət nümunələrinin toplanması işi də daim diqqətdə saxlanılır. Bu gün qədim diyarımızda sakinlər tərəfindən tariximizlə bağlı əşyaların muzeylərə təqdim edilməsi ənənəsi yaranır. Eksponatların təqdim edilməsi nəticəsində muzeylərimiz zənginləşir, həm də bu günə qədər gəlib çatmış qədim əşyalar muzeylərimizdə etibarlı şəkildə qorunur və nümayiş etdirilir. Keçən il muzeylərimizə 1500-ə, bu il isə 800-ə yaxın eksponat təqdim edilib.

Vurğulanıb ki, muzey fondlarının zənginləşdirilməsində səmərəli fəaliyyət göstərən vətəndaşlardan biri də Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Akif Hacıyevdir. Akif Hacıyev 35 ilə yaxındır ki, Cəlil Məmmədquluzadənin Nehrəm kəndindəki Xatirə Muzeyində çalışır. Təcrübəli muzey işçisi kimi Akif Hacıyev öz işinə qəlbən bağlılığı ilə seçilir. O, mədəniyyət və tariximizi sevməklə yanaşı, qədim əşyaların toplanmasında da fədakarlıq göstərir, muzey fondlarının yeni eksponatlarla zənginləşdirilməsində yaxından iştirak edir. İndiyədək onun topladığı 20-dən çox yeni eksponat muxtar respublikanın muzeylərinə hədiyyə edilib. Həmin eksponatlar içərisində müxtəlif məişət əşyaları, milli geyimlər, bədii tikmə və başqa maddi-mədəniyyət nümunələri vardır. Bütün bunlar onun mədəniyyət və tariximizə bağlılığından, həm də sevgisindən qaynaqlanır.

Akif Hacıyev görüşdə çıxış edərək vurğulayıb ki, muxtar respublikada maddi-mədəniyyət nümunələrinin toplanmasında bundan sonra da fəal iştirak edəcəkdir.

Görüşdə Akif Hacıyevə Mədəniyyət və Turizm Nazirliyinin fəxri fərmanı təqdim edilib, qiymətli hədiyyə verilib.

Sonda muzeyin ekspozisiyasına baxış olub.

**Əli RZAYEV**

*İdman xəbərləri*

## Qarabağlar kəndində kikboksinq bölməsi fəaliyyətə başlayıb

Bu gün Naxçıvan Muxtar Respublikasında idmanın kütləviliyi şəhər və rayonlarla yanaşı, muxtar respublikanın kəndlərində də diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, muxtar respublikada fəaliyyət göstərən idman federasiyaları kəndlərimizdə bölmələr açmaqla, gənclərin asudə vaxtlarını səmərəli keçirmələrini təmin etməklə yanaşı, həm də onların cəmiyyətə sağlam fərd kimi qazanılmasında müstəsna roy oynayırlar.

Belə bölmələrdən biri də Kəngərli rayonunun Qarabağlar kəndində yeni fəaliyyətə başlayan kikboksinq bölməsidir. Gənclər və İdman Nazirliyi, Kəngərli Rayon İcra Hakimiyyəti və Naxçıvan Muxtar Respublikası Şərq Döyüş Sənəti Federasiyasının dəstəyi ilə idmançıların istifadəsinə verilən bölmə rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin inzibati binasında yerləşir. Kikboksinqçilər üçün nəzərdə tutulmuş zal yenidən təmir edilib. Gənclər və İdman Nazirliyi tərəfindən zalda rinq, tatami və digər idman qurğuları quraşdırılıb. Bölmənin məşqçi-müəllimi Kaməddin Rzayev bizimlə söhbətində bildirdi ki, bu idman növü ilə artıq 40-a yaxın uşaq və yeniyetmə məşğul olur. Məşqlərimiz həftənin I, III və V günləri iki saat olmaqla keçirilir.



Tabe olduğumuz federasiya ilə yanaşı, nazirlik və icra hakimiyyəti də bizimlə mütəmadi olaraq maraqlanır. Həmçinin yerli idman idarəsinin məsul şəxsləri də məşqlərimizi izləyirlər. Məqsədimiz təkcə Qarabağlar kəndindən olanlar deyil, eyni zamanda rayonun digər kəndlərindəki istedadlı uşaqları da bura cəlb etməkdir.

## Beynəlxalq turnirdə karateçilərimiz 4 medal qazanıblar



Türkiyənin Ərzurum şəhərində Qaradəniz və Xəzər dənizi ölkələri arasında karate-do üzrə beynəlxalq turnir keçirilib. 27 ölkənin 2500 idmançısının mübarizə apardığı turnirdə Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının 5 yetirməsi də mübarizə aparıb.

Qonşu ölkəyə 1 qız və 4 oğlan idmançı ilə yollanan Karate-do Federasiyasının qazancı 4 medal olub. Belə ki, 12-13 yaşlılar arasında Vüsal Seyidov, 14-15 yaşlılar arasında Aslan İsmayılov və İmran Həsənov, 16-17 yaşlılar arasında isə Sərcan Məmmədov bürünc medal qazanıblar.

İdmançılarımız təşkilatçılar tərəfindən diplom, medal və kubokla təltif olunublar.

*Culfa Rayon Uşaq-gənclər şahmat məktəbində rayon Gənclər və İdman İdarəsi ilə Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının Culfa rayon bölməsinin birgə təşkil etdiyi yeniyetmə şahmatçılar arasında şahmatın tempo növü üzrə şəhər birinciliyinə yekun vurulub.*

## Zəka sahiblərinin mübarizəsində qaliblər müəyyənləşib



Yarış əsasnaməyə uyğun olaraq İsveçrə sistemi üzrə (7 tur) təşkil edilib. Rayon Gənclər və İdman İdarəsinin əməkdaşı Elçin Cəfərov, Təhsil Şöbəsinin məsləhətçisi Səbuhi İbrahimov və Uşaq-gənclər şahmat məktəbinin direktor əvəzi Vüsalə Ələkbərova çıxış edərək rayonda idmana göstərilən diqqət və qayğıdan danışıblar. Çıxışlardan sonra yarışın baş hakimi Nigar Dünyamalıyeva oyunun qaydaları haqqında idmançıları məlumatlandırıb.

Gərgin mübarizə şəraitində keçən görüşdə Elcan Qulamzadə 6 xalla birinci yerə layiq görülüb. Sunay Kərimli 5,5 xalla ikinci, Əli Qulamzadə isə 5 xalla üçüncü olublar.

Qaliblərə diplom və hədiyyələr təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

*Turizm*

***Təxminən, bir ay bundan əvvəl Bakı şəhərində yaşayan köhnə tanışlardan biri bir neçə günlüyə Naxçıvana qonaq gəlmişdi. Naxçıvanda heç zaman olmayan bu tanışıma gündəlik iş-gücdən bir neçə saat vaxt ayırıb şəhəri gəzdirmək imkanım olmuşdu. Tarixlə mədəniyyətin birgə nəfəs aldığı Naxçıvanın sürətli inkişafı qonağın da nəzərindən qaçmamış, əldə etdiyi təəssüratları bizimlə bölüşməkdən də çəkinməmişdi. Təbii ki, Naxçıvana gəlib Duzdağı görməməyin qəbahət olduğunu mağaranı gördükdən sonra tanışımın dilindən eşitməyim mənim üçün xoş bir duyğu idi. Bu xoşluğa təəssüf hissi qatan isə tanışımın: "Təəssüf ki, indiyədək Duzdağı dünyaya yetərincə tanıda bilməmişik" deməsi idi. Məhz bu fikirlər, təxminən, 20 il bundan əvvəl turist kimi olduğum bir əcaib muzeydən aldığım təəssüratları xatırlamağıma və indi oxuyacağınız bu yazının yazılmasına vəsilə oldu...***

## Duzdağı düşünərkən...



...Rus elitasının mərkəzi sayılan Sankt-Peterburq şəhərində bir muzey var. Bu muzey, sözün əsl mənasında, qeyri-adiliyi və çoxlarının dediyi kimi əcaibliyi ilə seçilir. Bəlkə də, oxucularımız arasında da həmin muzeydə olanlar var. Söhbət əsl adı "Kunstkamera" (almancadan tərcümədə nadir incəsənət əşyaları muzeyi) olan və I Pyotrun adını daşıyan Rusiya Elmlər Akademiyasının Antropologiya və Etnoqrafiya Muzeyindən gedir. Əvvəlcə onu deyim ki, bu muzeyin binası dünyanın ən qədim muzey binasıdır. Burada dünyanın fərqli xalqlarına və mədəniyyətlərinə aid 2 milyondan artıq sənət əsəri (geyim, məişət əşyaları və sair) saxlanılır. 1727-ci ildən fəaliyyət göstərən muzeydəki eksponatların bir qismini Şimali Amerika, Avstraliya, Yaponiya, Hindistan, İndoneziya, Afrika və sair ölkələrin etnoqrafik materialları təşkil edir. Əsas və ən çox sayda eksponatlar isə buradakı anatomik bölmədə yerləşir. Elə muzeyin əcaibliyi də bundadır. Deməli, vaxtilə I Pyotr Rusiyada elmin, texnikanın, mədəniyyətin inkişafı üçün digər ölkələrdən bura xeyli sayda maddi materialların gətirilməsini təşkil etmiş, hətta o dövr üçün inkişaf etmiş ölkələrdəki ilk bioloji təcrübələrin Rusiyada öyrənilməsi üçün böyük əmək sərf etmişdir. Nəticədə, bu gün həmin muzeyin anatomiya bölməsində xeyli sayda siam əkizləri, müxtəlif anatomik qüsurda yeni doğulmuş körpələr, yarı insan, yarı heyvan kimi məxluqlar, eləcə də fiziki qüsurlu heyvan və böcəklər xüsusi maye doldurulmuş şüşə kolbalarda saxlanılır və ziyarətçilərə nümayiş etdirilir. Muzeyin bu bölümünü ziyarət etmək çoxları üçün dəhşətli olsa da, bir zamanlar hətta pul qarşılığında əldə olunmuş bu "eksponatları" izləməyə gələnlər həddindən artıq çoxdur. Yeri düşmüşkən, muzeydəki otaqlardan biri də vaxtilə məşhur rus alimi Lomonosovun təcrübə otağı olub.

Bu muzeyi xatırlamaqda söhbət heç də muzeyin möhtəşəmliyindən bəhs etmək deyil. Məntiqlə baxsaq, həmin eksponatları Sankt-Peterburqda yaşı iki yüz ilə dayanan Hərbi Tibb Akademiyasının və ya digər tibb müəssisələrinin təcrübə bazasında da saxlamaq olardı. Məsələ burasındadır ki, həmin adıçəkilən muzey dünya səviyyəli Ermitaj muzeyindən sonra ən çox ziyarət olunan ünvanlardan biridir. Hətta ən qorxunc təsir bağışlayan bu eksponatlara tamaşa edənlər belə, yenidən bu muzeyə axışmaqda davam edir. Nəticədə isə qazanan rus turizmi və ya rus mədəniyyəti və elmi olur.

Məsələyə bu cür kontekstdə baxsaq, görərik ki, bu gün dünyanın ən inkişaf etmiş ölkələrində qeyri-adi muzeylərin təşkil olunması, sanki, dəb halını alıb. Şokolad muzeyi, Buz muzeyi, Vəhşi heyvanlar muzeyi, Uşaq muzeyi, Oyuncaq muzeyi və sair bu kimi muzeylər, əslində, turistlərin ölkəyə cəlb edilməsi yönündə düzgün marketinq üzərində qurulmuş layihələrdir. Mövzuya bağlılığını nəzərə alıb, təxminən, 13 il bundan əvvəl Cənubi Koreyada yaradılmış bir turizm növü haqqında da bəhs etmək istərdik. Bu ölkənin cənub-qərbində "Jeung" adlı ada yerləşir. Adanın səlahiyyətliləri uzun müddət bura turistləri cəlb etmək üçün yollar axtarır, nəhayət, 2004-cü ildə adanın ətrafı dəniz duzu ilə bol olduğuna görə burada "duz turizmi" təşkil etməyə qərar verirlər. Əvvəlcə bir duz muzeyi yaradırlar. Muzeydə duzdan hazırlanmış müxtəlif eksponatlarla yanaşı, həm də gələn turistlərə duzun istehsal tarixi haqqında məlumatlar verirlər. Duz mağazasında isə turistlərə duzdan hazırlanmış yüzlərlə çeşid suvenirlər təqdim olunur. Qısa müddət ərzində bir çox turizm administratoru adada duz hamamları da açır.

Bunları xatırladıqca yenidən Duzdağ yadıma düşdü. 90 milyon tondan artıq təbii duz ehtiyatlarına malik, neçə min illər boyu qoynundan çıxarılan duzla milyonların süfrəsinə ləzzət gətirən, tarixə Duz mədəniyyətini təqdim edən, müalicə analoqu olmayan Duzdağ...

*...Təbii ki, Naxçıvana gəlib Duzdağı görməməyin bir qəbahət olduğunu mağaranı gördükdən sonra tanışımın dilindən eşitməyim mənim üçün çox xoş bir duyğu idi. Bu xoşluğa təəssüf hissi qatan isə tanışımın: "Təəssüf ki, indiyədək Duzdağı dünyaya yetərincə tanıda bilməmişik" deməsi idi. Məhz bu fikirlər yuxarıda adını çəkdiyim Sankt-Peterburqdakı əcaib muzeydən aldığım təəssüratları, eyni zamanda Cənubi Koreyada yerləşən "duz turizmi"ni xatırlamağıma və indi oxuduğunuz bu yazının yazılmasına vəsilə oldu...*

**Səbuhi HƏSƏNOV**

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 690